# Tur-aksiyalar məktəblilərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayır

Ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə respublikamızın müxtəlif şəhər və rayonlarında yaşayan gənclərin digər bölgələrə səyahətlərinin təşkilinə dair Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində tur-aksiyanın dördüncü mərhələsinə start verilib.

AZƏRTAC xəbər verir ki, noyabrın 16-da səhər tezdən tur-aksiyasının “Astara-Gəncə-Şəmkir-Göygöl-Astara” marşrutunun iştirakçılarını yola salmaq üçün Astara Rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, təhsil işçiləri və valideynlər Heydər Əliyev Mərkəzinə toplaşmışdılar.

Qrupun rəhbəri Şərəbanu Məmmədova AZƏRTAC-ın müxbirinə səfər proqramı barədə məlumat verərək dedi: “Dövlətimizin başçısının təşəbbüsü ilə keçirilən aksiyanın iştirakçıları - Astara rayonunun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onların müəllimləri bu gün Gəncə şəhərinə yola düşürlər. Dörd gün davam edəcək aksiya çərçivəsində iştirakçılar Gəncənin, Şəmkir və Göygöl rayonlarının tarixi abidələri, görməli yerləri ilə yaxından tanış olacaqlar. Proqrama əsasən, səyahətimizin birinci günü Kürdəmirdən keçməklə Şəmkir rayonundakı Heydər Əliyev Mərkəzinin qarşısında qarşılanma mərasimi olacaq. Sonrakı iki gündə Gəncə şəhəri, Şəmkir və Göygöl rayonları ilə tanış olacağıq. Səyahətimizin dördüncü günü isə Şəmkirdən Astaraya qayıdacağıq”.



Tur-aksiyaların məktəblilərin dünyagörüşünün formalaşmasında mühüm rol oynadığını vurğulayan qrup rəhbəri ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə şagirdlər və müəllimlər adından dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Tur-aksiyanın digər iştirakçıları - Astara şəhər 6 nömrəli tam orta məktəbinin IX sinif şagirdi Aytac Şəmsizadə və şəhər 2 nömrəli tam orta məktəbinin X sinif şagirdi Aişə Bağırova sevinclərini bizimlə də bölüşdülər.

Aytac Şəmsizadə dedi: “Azərbaycanın tarixi, mədəniyyət abidələri ilə əyani tanışlıq hamımızın ürəyindəndir. Gəncə şəhəri, Şəmkir və Göygöl rayonları qədim tarixə, adət və ənənələrə malik, abidələrlə zəngin məkanlardır. Bütün bunları görmək bizə də nəsib olacaq. Məktəblilər üçün bu imkanı yaradan dövlətimizin başçısına olduqca minnətdarıq”.

Çox keçmədən Astara-Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə aksiya iştirakçılarını Gəncəyə aparan avtobus yola çıxdı.